T Ü R K O L O G İ Y A

**№ 1** **2023**

https://doi.org/10.59849/2313-5204.2023.1.29

*NADİR MƏMMƏDLİ (Azərbaycan)*[*]

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ BANİSİDİR

Azərbaycançılıq inteqrativ ideoloji sistem, milli ideya formasıdır, bu ideyanın əsasında sivilizasiyalı, milli mənəviyyatlı, mentalitetə malik Azərbaycan təsəvvürü dayanır. Tarixi inkişafda dünya mədəniyyətinə inteqrasiya olunan milli ideya dövlət quruculuğu prosesində həmişə mühüm yaradıcı rol oynamışdır. Müstəqil bir dövlətin ideologiyası siyasi amillərin həlli üçün lazımi vasitə, mühüm milli resursdur; azərbaycançılıq hər bir vətəndaşın amalının milli və ümumbəşəri dəyərlər dünyasıdır. Gücü bundadır ki, fərdi maraqları və meyilləri dövlətin siyasəti ilə birləşdirməyə və xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamağa qadirdir.

Xalqımızın adət-ənənələrini, milli-mənəvi dəyərlərini, mədəni zənginliyini günümüzədək özündə qoruyub-saxlayan baxışlar sistemi kimi azərbaycançılıq ideyasının təşəkkül tapmasında Ulu Öndərin misilsiz xidmətləri vardır. O, müstəqillik dövrünün azərbaycançılıq – milli dövlətçilik ideologiyasını formalaşdırmış, sistemləşdirmiş, məfkurə, birlik səviyyəsində əsaslandırmışdır. Heydər Əliyevin ideyalarının, dövlətçilik təliminin siyasi təməlində azərbaycançılıq ideologiyası dayanmışdır; ideoloji düşüncəmizin ənənələrini nəzərə almış, bu konsepsiyada tarixiliklə müasirliyin nəzəri-təcrübi vəhdətini, azərbaycançılıq məfkurəsinin gələcəyə yönəlməsini, uğurlar qazanmasını əsaslandırmışdır. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, milli dövlət yaradarkən azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik baxımdan parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər yaratdı. Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayında dövlət siyasətinin prioritetini belə səciyyələndirmişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Azərbaycançılığın məramını belə dəyərləndirir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub

[*] Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Baş direktoru, professor.
E-mail: nurlan1959@gmail.com

saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Azərbaycan ədəbiyyatı, musiqisi, təsviri sənətində, kinosunda, eləcə də digər sahələrdə xalqın ruhunu, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər meydana gəlmişdir, bu prosesi daim təşviq etmiş və dəstəkləmişdir. Onun fikrincə, azərbaycançılıq təliminin təməlində dayanan amillərdən birincisi xalqı irəli aparan, tarixdə yaşadan qüdrətli vasitə Azərbaycan dilidir. O, Azərbaycan dilini milli mənliyin əsas məsələsi kimi daim diqqət mərkəzində saxlamışdır. Heydər Əliyev 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli toplantıda, daha sonralar respublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinməyib, dövlət strukturu nümayəndələrinə şəxsi nümunə göstərib. Azərbaycanda sovet dövrünün əvvəllərindən qadağan edilən, "qara siyahı"ya salınan türkologiya elmi 70-ci illərdə sürətli inkişaf dövrünə qədəm qoydu, Bakı dünya türkologiya elminin mərkəzinə çevrildi. Sonralar Ulu Öndər deyəcəkdi: "Azərbaycanda türkologiya da çox inkişaf edibdir... Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı Azərbaycanda nəşr edilirdi".

Müstəqillik illərindən çox qabaq sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə respublikamızda milli özünüdərk və milli-mədəni intibahın yüksəlişi başlamışdır. XX yüzillik Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Məhz bu dövrdə dilimizin funksional imkanları genişlənmiş, üslubları zənginləşmiş, dilin daxili inkişaf meylləri əsasında yazı qaydaları cilalanmışdır. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda cəmiyyətdə elə bir sahə yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin.

Heydər Əliyev Azərbaycana böyük tarixi nailiyyətlər, uğurlar və tükənməz dövlətçilik təcrübəsi, müstəqil və əbədi azad Azərbaycanı bəxş etdi. Gələcəyə doğru inkişafımız üçün miras qoyduğu sərvətlərdən biri də azərbaycançılıq ideologiyasıdır. Türkçülüyün tərkib hissəsi kimi azərbaycançılığı milli dövlətçilik ideologiyası kimi sistemə saldı, dünya azərbaycanlılarının milli birlik təlimi kimi əsaslandırdı. Bu zaman dövlətçilik ənənələrimizin tarixinə və Azərbaycan ziyalılarının milli dilimizin adı uğrunda XX əsrin sonlarındakı fikir mübadilələrinə düzgün yanaşdı. Bütün bunlar dövlətçilik tariximizdə o qədər də asan başa gəlməmişdir.
Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Hər hansı bir dilin dövlət statusu alması, şübhəsiz ki, hər bir dövlətin formalaşması ilə bilavasitə bağlıdır. Azərbaycan xalqının tarixində Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində həmin ənənə uzun müddət pozulmuşdur. Yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. Bu sahədə bəzi addımlar atılsa da, gənc respublikanın ömrünün qısa olması Azərbaycan dilinin cəmiyyətdə dövlət dili kimi tam bərqərar edilməsinə imkan vermədi. H.Əliyevin nitqindən:

"1921-ci ildə qəbul olunmuş ilk Azərbaycan Konstitusiyasında dövlət dili ilə bağlı heç bir maddə yoxdur. 1937-ci ildə də qəbul edilmiş Azərbaycan Konstitusiyasında dövlət dili haqqında heç bir maddə olmayıbdır. ...1977-1978-ci illərdə biz yeni Konstitusiyanı qəbul edərkən bu, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni Konstitusiyada Azərbaycan Dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq… Mən həmin Konstitusiyanı hazırlayan komissiyanın sədri idim və bu işlərə rəhbərlik edirdim. 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz Konstitusiyanı qəbul etdik. Həmin Konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir" (https://lib.aliyev-heritage.org/az/4387198.html). Daha sonra yazacaqdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

Müstəqilliyin ən mühüm atributlarından biri dil məsələsidir. Hakimiyyətə gələn Xalq Cəbhəsi dövlət dilinin Azərbaycan dili yox*, türk dili* ilə əvəz olunmasını, beləliklə tarixi həqiqətin "geri qaytarılması"na təşəbbüs etmişdir. Bütün dövlət strukturları, orta və ali məktəb dərsliklərində Azərbaycan kəlməsi *türk* sözü ilə əvəz olunmuşdur. Bu əvəzolunma ictimaiyyət tərəfindən narazılıqla qarşılanmışdır. Məsələnin ciddiliyini nəzərə alan Ümummilli Lider xalqın və dövlətin adı ilə bağlı müzakirələr keçirir. Müzakirədəki giriş nitqində məsələnin qaranlıq tərəflərinə aydınlıq gətirir. Xalq 1995-ci il noyabrın 12-də referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək, Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar olduğunu bildirdi. Ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Milli kimlik və milli dilin adı, Azərbaycan milli ideologiyası problemi ilə bağlı məsələlər mübahisəli olaraq qalırdı. Tanınmış ziyalılar, elm və mədəniyyət xadimlərinin iştirakı ilə 1995-ci ilin noyabrın əvvəllərindən müzakirələrə başlandı. Azərbaycançılıq ideologiyası əsaslandırılarkən, "Azərbaycan dili" və "Azərbaycan milləti"nin vacibliyi irəli sürülür. Milli ideologiyanın hər hansı bir adla ("türkçülük", "azərbaycançılıq", "islamçılıq" və s.) ifadəsi iki faktorun həllində mühüm əhəmiyyət daşıyırdı: millətin və dilin adı. Millət və dilin adına aydınlıq gətirildikdən sonra, bütün hallarda milli ideologiya bu iki amil əsasında təşəkkül tapacaq, yəni bir xalqın etnik kimliyi və milli dili nədirsə, müəyyən mənada onun milli ideologiyası da odur. "Azərbaycan dili"nin varlığı və Konstitusiyada öz əksini tapması *azərbaycançılıq* ideologiyasının mövcudluğundan bəhs etmək üçün ən vacib faktordur.

"Türk dili", "Azərbaycan türk dili", "Azəri türk dili", "Azərbaycan türkcəsi", "Azərbaycan dili" – hər halda, elmi ictimaiyyətə məlumdur ki, bir çox obyektiv səbəblərə görə Azərbaycan və Türkiyə türklərinin minilliklər boyu paylaşdıqları *türk dili* sonralar müxtəlif yönümdə inkişaf etmişdir. "Azərbaycan dili" anlayışı "Azərbaycan – türk dili" modelinin tərkib hissəsidir. Bu, ilk növbədə, türklərin tarix səhnəsində etnos diferensiasiyası ilə bağlıdır. Türk dili "Azərbaycan dili" anlayışını həm keçmişə bağlamış, həm də gələcəyə gətirib çıxarmışdır. Türk dili

bütün türk dilləri üçün ümumi ad olmuş, daha sonralar regional-coğrafi təzahürlərinə görə adlandırılmışlar.
İki gün davam edən müzakirələrin yekun nəticəsi belə olur: 1) türk dili; 2) Azərbaycan türk dili və ya Azərbaycan türkcəsi; 3) Azərbaycan dili. Müzakirələrin 5 noyabr 1995-ci il tarixli yekun iclasında Ümummilli Lider H.Əliyev çıxışında deyir: "...1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dövlət dili Azərbaycan dili yazıldığına və on illər müddətində Azərbaycan dili həyatımızın hər yerində bərqərar olduğuna görə biz layihənin 23-cü maddəsində yazdıq ki, "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" (https://e-qanun.az/framework/3568). H.Əliyev tarixi köklərimizə, keçmişimizə hörmətlə yanaşır: "Bizim mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adı götürüb və dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil – həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm də Azərbaycan dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil. Mən bir dəfə dedim ki, biz gərək öz milli mənliyimizi heç vaxt itirməyək. Xalqların hər biri tarixi yol keçib, hər birinin də özünəməxsus nailiyyəti var. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüquqlar çərçivəsində Azərbaycan Respublikasında yaşayan azərbaycanlılardır. Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik. Yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir. Ancaq o, 23 dil kimi bizim də öz dilimiz var. Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə yapışdırmalı, nə də qoşmalıyıq. Bizim özümüzün dilimiz var".

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr referendumu ilə qəbul olunmuş Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit olundu. 18 iyun 2001-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Fərmanda yazılır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır… Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir" (3, 2001).

Ümummilli Lider Heydər Əliyev dövlət dili probleminin tarixi-fəlsəfi, hüquqi və milli-mənəvi konsepsiyaya əməl olunmaqla həllini tapmaq işinə böyük önəm verdi, qarşıya qoyduğu bu vacib məsələni Azərbaycan dilçiləri sosiolinqvistik planda müvəffəqiyyətlə yerinə yetirdilər. Akademik Ağamusa Axundov dövlət dilimizin adını Azərbaycan dili kimi tanınmasını (de-yurye, de-fakto) tarixilik və dövlətçilik baxımından demokratik tərzdə hərtərəfli əsaslandırdı. Bununla da

dilimizin adı və məzmunu həm siyasi, həm də elmi cəhətdən birmənalı şəkildə təsbit olundu.

11 sentyabr 1990-cı ildə əlifba Komissiyası yaradılır. Təklif olunan əlifba Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci ildə keçirilən iclasında müzakirəyə çıxarılır və "Latın əlifbası əsaslı Azərbaycan əlifbasının islah edilməsi haqqında Azərbaycan Respublikasının qanunu" qəbul edilir. Yeni əlifbanın təsdiqindən sonra da müzakirələr səngimir. Müxtəlif səbəblərdən 10 il latın qrafikalı yeni əlifba Kiril əlifbası ilə paralel işlənir, yalnız Ulu Öndərin 2001-ci il 18 iyun tarixli fərmanından sonra bütün Azərbaycan ərazisində latın əlifbasına keçilir (https://e-qanun.az/framework/2811). 1 avqust 2001-ci ildə "Azərbaycan əlifbası və Azərbaycan dili günü" elan edilməsilə iki əlifbadan istifadəyə birdəfəlik son qoyulur. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edilməsi və yeni əlifbadan istifadə müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə oldu. Ölkəmizin tarixində ilk dəfə ana dili və onun əlifbasının şərəfinə ayrıca günün təsis olunması müstəqil dövlətimizin ana dilinə nə qədər ciddi yanaşdığını əks etdirən tarixi amildir (https://e-qanun.az/framework/2811).

Heydər Əliyevin rəhbərliyi altında işlənib-hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı dilimizin hüquqi statusunu, onun işlənməsi, qorunması və inkişafı üçün zəruri olan tədbirləri müəyyənləşdirmişdir (https://e-qanun.az/framework/3568). Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanun qəbul olunması ilə nəticələndi.

XXI əsrin əvvəllərindən Azərbaycan dilində gedən islahatlar daha aktual xarakter alır: Ümummilli lider Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı, 30 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu" müstəqilliyimiz bərpa olduqdan sonra Azərbaycan dili cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində daha geniş istifadə edilməyə başlamış, onun dövlət dili kimi maneəsiz inkişafı üçün əlverişli zəmin yaranmışdır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanda deyilir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Dilimizin kütləviliyi, inkişafı, qayda və tələbləri bu sənədlərdə geniş formada öz əksini tapıb. Qanunda göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya

azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur. Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir. Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir. Daha sonra qeyd edilir: "Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır" (https://e-qanun.az/framework/25537).

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." – bu müdrik sözləri dahi rəhbərimiz Heydər Əliyev söyləyib. On illər boyu şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparan Ulu Öndər Azərbaycan dilinə, eləcə də dilçilərinə diqqət yetirib. Azərbaycan dilçi alimlərini yüksək dövlət mükafatlarına layiq görüb, daha böyük tədqiqat işlərinə ruhlandırıb.

Azərbaycan dilini sevmək, qorumaq, onun işləkliyini təmin etmək, təbliğ etmək barədə Ümummilli lider Heydər Əliyev olduqca dəyərli fikirlər söyləyib: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir" (http://sesqazeti.az/news/kivdf/302636.html).

Ümummilli Lider dəyərlərimizin qorunması və zənginləşdirilməsini milli varlığımızı yaşatmağı ən önəmli məsələ kimi daim diqqətdə saxlamış, Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə onun güclü dövlətçilik xəttini, siyasi əsaslarını yaratmış, Azərbaycan xalqının milli intibahının ideya təməli olan azərbaycançılığı yüksək səviyyəyə qaldırmışdır.

Azərbaycançılıq keçmiş tarixi dövrlərin mədəni kodlarını, rəmzlərini mənimsəyərək onlardan yeni ideyaları əsaslandırmaq və milli dövlətin inkişafının vektorunu müəyyənləşdirmək – hazırda cəmiyyətimizin ən qurucu və dinamik qüvvəsidir. Bu ideologiya güclü dövlət hakimiyyətinin, möhkəm milli intizamın, maraqların və özünüdərkin olmasını tələb edir, Azərbaycanda vahid cəmiyyət, vahid xalq formalaşdırır. Azərbaycançılıq hər kəsin hüquq və azadlıqlarının təmin olunduğu siyasi və dövlət quruluşunun milli mahiyyətinə, inkişaf strategiyasına, formasına etno-siyasi baxışdır. O, ən müxtəlif sosial təbəqələrdə həmrəylik axtarır, daimi, lakin mötədil, millətin və dövlətin real imkanlarından irəli gələn reformaları təbliğ edir. Azərbaycançılıq məfkurəsi əsasında Azərbaycan xalqının tarixi, mənə-

vi-əxlaqi, mədəni birlik ideyası durur və bu, uzaq gələcəkdə də azərbaycanlıların nəsillərinə xidmət edəcəkdir.

Azərbaycançılıq – bu vətənə sevgi, Azərbaycan torpağının təəssübünü çəkmək, mədəniyyətini sevmək, ona öz hörmətini bildirmək və onu daim təbliğ etmək – Azərbaycanla bağlı olan müsbət nə varsa, hamısının bir arada toplusu deməkdir. Azərbaycançılıq həm müasirlik, həm də dünya azərbaycanlılarını öz ətrafında birləşdirən vahid ideyadır.

Azərbaycançılıq ideologiyası cəmiyyətdə milli birliyi, ümumxalq münasibətləri qorumaq, millətin, onun dövlətinin mövqeyini təsdiq və inkişaf etdirmək məqsədi daşıyır; milli-mənəvi varlığının, kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının inkişafını davamlı edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafına köməkliyini əsirgəməyən hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır.

Azərbaycançılığın əsasları kimi söhbət təkcə milli dildən, dindən, adət-ənənədən, mədəni-mənəvi dəyərlərdən, habelə bu dəyərlərin rəsmi dövlət fərmanları ilə təsbit olunmasından getmir, bu milli sərvətlərin öyrənilməsi, dəyərləndirilməsi, qorunması kifayət etmir, onlar ictimai zəmində dinamik bir proses kimi saxlanılmalı və inkişaf etdirilməlidir. Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayında deyir: "Azərbaycançılıq coğrafi anlayış deyil, o daha çox siyasi anlayışdır… Kim özünü azərbaycanlı hiss edirsə, o, azərbaycanlı sayıla bilər!"

Müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa təsir göstərir. Qloballaşan dünyada bəzən vətənpərvərlik hissi daha çox vətəndaşlıq, loyallıq və tolerantlıq hissləri ilə əvəz olunur. Sənayeləşmə, demokratikləşmə, məlumat mübadiləsi dairəsinin genişlənməsi və s. qloballaşma prosesi atributları etno-milli mənsubiyyətlərə təsir edərək münaqişələrə səbəb olur. Təsadüfi deyildir ki, qloballaşmanın milli ideologiya ilə ziddiyyət təşkil etməsi fikirləri də səslənir. Ona görə də, çağdaş zamanda milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahənginə nail olmaq, qloballaşma prosesinə milli-mənəvi irslə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır: dövlətlər daha çox qloballaşma proseslərinə üstünlük verərək daxili problemlərinin həllini beynəlxalq əməkdaşlıqda görürlər. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri də özündə ehtiva edir, Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını təşkil edir. Bu ideya bizi dünyaya tanıdır, mütərəqqi dəyərləri (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiyanı təbliğ edir. Azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir və ölkəmizin müasir milli modernləşmə yolunu Avropa məkanına inteqrasiyada görür. İnkişaf etmiş Avropa ölkələrinin tarixi göstərir ki, baş verən hər hansı siyasi, iqtisadi kataklizmlərə, hakimiyyətlərin bir-birini əvəzləməsinə, dövlət quruluşunda dəyişikliklərə baxmayaraq, bu ölkələrdə müstəqillik və demokratik inkişaf yolu dönməz və sarsılmazdır. Azərbaycançılıq ideyası da universal dəyər olan

insan hüquqlarının qorunması, Avropa məkanında beynəlxalq təhlükəsizliyin təmin edilməsi, eyni zamanda ölkələrin ərazi bütövlüyü prinsipi və digər vacib dəyərləri nəzərdə tutaraq qloballaşmanı müasir dünyanın təbii inkişaf prosesi hesab edir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edir ki, bu gün Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir. Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda milli eyniyyətini qoruyub saxlaması müstəsna əhəmiyyət kəsb edir: "Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azərbaycançılığın qorunması və gələcək nəsillərə ötürülməsini, Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin missiyasını böyük məsuliyyətlə və layiqincə həyata keçirir, bütün sahələrdə ümummilli ideologiya olaraq möhkəmlənməsi istiqamətini ardıcıl davam etdirir.